F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycan şərqşünaslığının şöhrətli siması
# Aida İmanquliyeva - 85



**(Veblioqrafiya)**

**Bakı – 2024**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**
**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**
**Əlaqə: (+99412) 597-08-79, (+99412) 597-09-86**
**info@clb.az**
**ushaqkitabxanasi@gmail.com**
**childlibbaku@yahoo.com**

## Həyat və yaradıcılığı

Xalqımızın tarixində ilk azərbaycanlı şərqşünas qadın, elmlər doktoru Aida İmanquliyeva öz həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edib və özünün şəxsiyyəti və yaradıcılığı timsalında dünənimizlə bugünümüz arasındakı əlaqə bağlarını bərpa etməyə çalışıb.

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir uzun müddət "Bakı" və "Baku" qazetlərinin baş redaktoru işləmişdir.

Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil almışdır. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru olmuşdur (1971-1973 və 1979-1981).

Aida İmanquliyeva ""Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında" (1970), "Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi" (1977), "Sovet Azərbaycanı və xarici Şərq" (1980), "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində - 3 monoqrafiya ("Mixail Nuayme və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri") və 70-dən artıq elmi məqalədə Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır.

Görkəmli ədəbiyyatşünas xanım A.İmanquliyeva 1992-ci il sentyabrın 19-da Bakıda dünyasını dəyişmişdir

## Görkəmli şəxslər Aida İmanquliyeva haqqında

“Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyası əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir”.

**Mehriban Əliyeva**

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

“Ömür anidir, keçicidir, bəlkə də fanidir, həyat isə daimidir, əbədidir. Ömrü ölçə bilən meyarlar var - saatlar, günlər, aylar, illər var. Ömür bir nəfərə - təkə bağlıdır, həyat isə külli-bəşəriyyətə, cəmə bağlıdır. Ömür aydındır, cünki ömrün əvvəli də var, sonu da. Amma həyat aydın deyil. Çünki həyatın nə əvvəlini bilən var, nə də sonunu. Bu, həmişə belə olub və belə də olacaq. Çünki ömür konkret, həyat isə abstraktdır. Yaranan nə varsa, bu iki vəhdətin qanunu arasında yaşayır. Elə insanlar olur ki, onların ömrü qısa olsa da, qurtarsa da, həyatı davam edir. Biz onları görmürük, səsini eşitmirik, amma qəlbimiz onlarla danışır. Gözlərimiz onları görmür, amma onların siması, cizgiləri, surəti daim canımızda, qanımızda, ürəyimizdədir və o surət bizi hec vaxt tərk etmir”.

**Nərgiz Paşayeva**

*fil.e.d., professor*

“Aida İmanquliyevanın qələmi yazıçı qələmi idi və məsələ yalnız onda deyildi ki, o Azərbaycan Yazıçılar İttifaqının üzvü idi, Mixail Nüaymə, Cübran Xəlil Cübran, Əmin ər Reyhani kimi məşhur ərəb yazıçılarının bədii əsərlərini Azərbaycan dilinə gözəl tərcümə etmişdir”.

**Elçin Əfəndiyev**

*yazıçı, nasir, dramaturq*

“Onun qədim Misir mənşəli adı – Aida sonradan C. Verdinin eyni adlı operasında təsvir edilən məhəbbətə sədaqətli, eşqini hər cür mənafelərdən yüksək tutan safürəkli, fədakar qadın obrazına çevrilmişdir”.

**Bəxtiyar Vahabzadə**

*şair, ədəbiyyatşünas*

“Aida xanım İmanquliyevanın elmi fəaliyyətinin maraq dairəsi geniş və çoxşaxəli idi. Onun elmi əsərlərində Qərb və Şərq mədəni əlaqələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunub ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaratdı. Bu baxımdan Aida xanım İmanquliyevanın əsərləri nəinki milli Azərbaycan, yaxud keçmiş sovet, hətta cəsarətlə demək olar ki, bütün dünya ərəbşünasbğına qiymətli bir hədiyyədir”.

**Ziya Bünyadov**

*Əməkdar elm xadimi, tarixçi, şərqşünas*

“Əziz xatirəsini sonsuz hörmət və məhəbbətlə yad etdiyimiz böyük insan, istedadlı alim, ictimai xadim, gözəl qadın və ana olan Aida İmanquliyeva da məhz elmimizin, mədəniyyətimizin həmin qızıl dövrünün yetişdirdiyi görkəmli nümayəndələrindən olmuşdur. Aida xanım istedadlı alim, çağdaş ərəb ədəbiyyatının bilicisi, bu sahə üzrə Azərbaycanda ilk qadın elmlər doktoru idi. Mixail Nüaymə”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatı korifeyləri” kimi tədqiqat əsərləri öz elmi əhəmiyyətini və dəyərini qoruyub saxlamaqdadır”.

**Fəraməz Maqsudov**

*Fizika-riyaziyyat elmləri doktoru*

“Bakı Dövlət Universitetinin böyük ənənələri olan Şərqşünaslıq fakultəsinin dünya şöhrətli alimləri sarasında bir parlaq şəxsiyyət də var. Bu, elmimizin inkişafında müstəsna xidmətləri olan, ləyaqətli ziyalı, görkəmli alim, filolofiya elmləri doktoru, professor Aida xanım İmanquliyevadır.

“Düz 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini fəlsəfi düşüncələrinin işığında araşdıran, Şərq-Qərb dəyərləri kontekstində tədqiqata cəlb edən, «Köç yolu»ndan keçənlərdən soraq verən Aida xanım hələ ötən əsrin 70-ci illərində, sərhədlərin qapalı olduğu, imperiyanın at oynatdığ dövrdə vətəndaş ziyalı, qüdrətli alim kimi öz sözünü deyərək, insanları, dövlətləri Böyük Köç Yoluna İpək Yoluna səsləmişdi.

Hissin və düşüncənin, müdrikliyin və uzaqgörənliyin, vətən, torpaq sevgisinin və ilahi eşqin işığında qələmə aldığı əsərlərlə o, bir növ Şərqin böyük qələm və fikir sahiblərindən, Şərqdə mələklərin qanadında yerə endirilən, şərqli Məhəmmədin

ruhundan cücərən Qurani-Kərimdəki «Qələm surəsi»ndən danışmaqla «Böyük Köç Yolunda» işıq paylayan babalanmızm qüdrətindən söhbət açırdı.

«Su axan yerdən bir də axar» hikmətinə tapınan Aida xanım Şərq düşüncəsi, Şərq təfəkkürü və şərqli məhəbbəti ilə Azərbaycan elminin, mədəniyyətinin ləyaqətli təmsilçisi olmuşdur.

«Gəlimli, gedimli, son ucu ölümlü dünya» da heç kos əbədi deyil. Əbədi olan amal və əməldir. Aida xamm özünün amalı, əməli, fitri istedadı, akademik təfəkkürü, sanballı əsərlərilə köçdü yaddaşlara!”.

**Abel Məhərrəmov**

*professor*

“Aida İmanquliyeva öz genetik-fərdi xüsusiyyətləri ilə də Şərq və Qərbin vəhdətini simvolizə edirdi. Zahiri görkəmi ilə Şərqin şeriyyətini, ülviyyətini təcəssüm etdirən Aida xanım öz elmə bağlılığı, rasional düşüncəsi, təşkilatçılıq keyfiyyətləri ilə və ən başlıcası, sözün əsil mənasında müasirliyi ilə çağdaş Qərb sivilizasiyasını təmsil edirdi. Gendən gələn Şərq mahiyyəti ilə, müasir zamanın tələbatlarından gələn Qərb keyfiyyətlərinin vəhdəti ona məhz vəhdətin özünü tədqiqat probleminə çevirmək səlahiyyəti vermişdi”.

**Səlahəddin Xəlilov**

*professor*

“Aida xanım öz peşəsinin vurğunu idi. O, öz səmimi, mehriban ailəsini sevir, övlad qayğısı ilə yaşayırdı. Aida xanım elini, obasını, vətənini sevir, xalqımızı, elmimizi yüksək səviyyəli beynəlxalq konqreslərdə vüqar, şərəf və ləyaqətlə təmsil edirdi”.

**Bəkir Nəbiyev**

*Fil.e.d., professor*

“Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk alimdir. O, Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Alimin tədqiqatları nəticəsində mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir həqiqəti ortayaqoyur - Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər. Aida xanımın çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması

tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün çox mühüm zəmin yaradır".

**Gövhər Baxşəliyeva**

*fil.e.d., professor*

"Azərbaycanın, millətimizin XX yüzillikdə tarixi uğurlarmdan biri, məncə, Azərbaycan qadınlığıdır, ictimai-siyasi, mədəni həyatın bütün sahələrində fenomen kimi qərarlaşmış müasir Azərbaycan qadınıdır. Əgər Azərbaycan xalqının XX əsrdə ən layiqli 100 qadınının siyahısı tərtib olunsa, bunlardan biri Aida xanım İmanquliyevadır".

**Cəmil Quliyev**

*kinorejissor*

"Dünyasını çox vaxtsız dəyişən görkəmli alimin nəinki şərqşünaslıq, ümumən elm haqqında çox maraqlı və gərəkli fikirləri, planları var idi".

**Ağamusa Axundov**

*ədəbiyyatşünas, dilçi, türkoloq*

"Onun elmi yaradıcılığının ana xəttini Qərb və Şərq mədəni əlaqələrinin sintezinin təşkil etməsi, Şərqin neçə-neçə yazarlarının əsərlərini dilimizə tərcümə etməsi, bir ictimai xadim, elm təşkilatçısı olaraq, Şərşünaslıq İnstitutunun direktoru kimi fəaliyyət göstərərək münasibətlərin, əlaqələrin qovşağı olması da sanki tale tərəfindən bu yaradıcı, məhsuldar insana bəxş edilən bu həyat missiyasının – mənəvi körpü olmaq missiyasının ifadəsidir".

**Afaq Əsədova**

*fil.e.d., dosent*

"Gözəl alim olan Aida İmanquliyeva istedadlı tərcüməçi, mahir ədəbiyyatşünas, natiq idi. Həmkarları onu böyük mütəffəkir, görkəmli ictimai xadim və müdrik filosof kimi tanıyırdılar".

**Hicran Hüseynova**

*siyasi xadim*

## Aida İmanquliyevanın qiymətli fikirləri

“Ədəbiyyat yazıçı ilə oxucu arasında mənəvi vasitəçi olmalıdır. O, insan qəlbinin sirlərini və dərinliklərini öyrənməli, “söz hoqqabazlığı və şeir dekoru sərgisinə” çevrilməməlidir”.

“Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqda həm ölkəmizdə, həm də xaricdə maraqlı monoqrafiyalar yazılmış, tədqiqatlar aparılmış-dır. Lakin şairin yaradıcılığının kompleks, çoxcəhətli təhlili hələ də gələcəyin vəzifəsidir”.

“Azadlığı ər-Reyhani fövqəladə dərəcədə geniş başa düşür - bu həm şəxsiyyət azadlığı, həm yaradıcılıq azadlığı, həm də xalqın azadlıqdan azad olmasıdır”.

“Mən hər dəfə suya daş atanda, o, əmələ gələn dairələrin ortasına düşür. Bu idiomanı belə açıqlamaq olar: Nə edirəmsə-edim, həmişə hədəfə dəyirəm”.

“Qaranlıq və soyuq qışdan sonra təbiətin dirçəlişinin, ılıq baharın gəlişinin rəmzi olan Novruz bayramı qədim dövrlərdən Şərq xalqlarına yadigar qalan ən nəcib, xoş əhval-ruhiyyəli, sevimli bayramlardan biridir. Bahar bayramı xeyirxah hisslərin, insani duyğuların, mərdliyin və dostluğun tərənnümü bayramıdır: ruzi bayramı, əmək bayramıdır; Novruz təmizlik, saflıq, gözəllik bayramıdır”.

“Romantik şair ağlı intuisiya ilə, hisslə birləşdirir, ... dünyanı ilhamla, “bədii şəkildə” mənimsəyir”.

“Ədəbi əlaqələrin tarixi xalqların tarixi ilə qırılmaz surətdə bağlıdır”.

“Müxtəlif ədəbiyyatlara məxsus yazıçıların əsərlərindəki aktual, vaxtı çatmış məsələlərin ümumiliyi bir tərəfdən cəmiyyətin tarixi inkişafından doğursa, zamanın problemləridirsə, o biri tərəfdən, ümumiyyətlə, ədəbi tərəqqinin qanunauyğunluqlarının ifadəsi olan beynəlmiləl ədəbi təsirin nəticəsidir”.

“Gündəlik qayğı ilə yaşayan insanlar çox zaman gözəlliyin yanından ötüb keçirlər, şairin borcu onların diqqətini gözəlliyə yönəltməkdir”.

“Nailiyyətlər, uğurlu tapıntılar nə qədər əhəmiy-yətli olsa da, qədim mədəniyyəti¬mizin bir çox cəhətləri kölgədə qalmış, xüsusən XII əsrdən əvvəlki çağların ədəbi və tarixi mənzərəsi səthi mülahizələr, sistemsiz araşdırmalar çərçivəsindən kənara çıxa bilməmişdir”.

“Xeyirxahlıq zahiri mərazimlərə ziyarət etməkdən yüksəkdə durur”.

“Ərəb dilində yazılmış bədii və fəlsəfi sənət nümunələrinin doğma dilimizə tərcümə olunması, onların rus dilində nəşri işinin təşkil edilməsi, dünyanın müxtəlif kitabxanalarına səpələnmiş nümunələrin axtarılıb tapılması qarşıda duran mühüm məsələdir”.

“Şair üçün təbiət gözəllik və ilham mənbəyi, əbədi və hər şeyi əhatə edən həqiqətin ifadəçisidir”.

“Cəmiyyətin inkişafını qadınlarsız, elmin, texnikanın, mədəniyyətin tərəqqisini, bir cox mühüm ictimai poblemlərin həllini qadınların iştirakı olmadan təsəvvür etmək mümkün deyildir”.

“Şərqdə həyatın təkmilləşməsi üçün yalnız hissi aləm və fəlsəfi idrakın dərinliyi bəs olmadığı kimi, hələ mədəni nailiyyətlər və texniki tərəqqi də insanın mənəvi və sosial dirçəlişi üçün kifayət deyil”.

## Şəkillərdə
















## Əsərləri dövri mətbuatda

Nizami və nəzirəçiləri // Ədəbiyyat qəzeti. - 2012. - 5 oktyabr.- S. 3.

Novruz Şərq ölkələrində // Azərbaycan : qəzet. - 2024. - 20 mart. - № 62. - S. 9.

### Haqqında kitablarda

Ağ günlərin sorağında : İraq ədəbiyyatından seçmələr. – Bakı : Elm, 2019. – 176 s.




Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun "Ərəb filologiyası" şöbəsinin əməkdaşlarının tərcümə etdikləri İraq yazıçılarının əsərlərindən ibarət "Ağ günlərin sorağında" adlı toplunun tərcüməsində və çapında Aida xanımın əməyini xüsusi qeyd etmək lazımdır. Bu kitaba Aida xanım geniş müqəddimə yazmışdır. O, bu müqəddimədə topluya daxil edilən tərcümə əsərlərinin səciyyəvi cəhətləri haqqında dəyərli mülahizələr irəli sürmüşdür.Oxucuların ixtiyarına verilən bu kitab unudulmaz Aida xanım İmanquliyevanın işıqlı xatirəsinə daha bir töhfədir. (G. Baxşəliyeva)

**Əmircanova Q.** Gözəllik və kamillik ilahəsi. - Bakı : Avrora, 2008. - 128 s.




Bu kitabda görkəmli ərəbşünas qadın alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın həyat və yaradıcılığından söz açılır, ərəb ədəbiyyatı haqqında yazdığı elimi monoqrafiyalar, etdiyi tərcümələrdən danışılır, alimin Azərbaycan ərəbşünaslıq elmində tutduğu mövqeyi aydınlaşdırılır.

## Haqqında dövri mətbuatda

**Abbas G.** Qısa və mənalı ömrün səhifələri : Elmin zirvəsini fəth edən Aida İmanquliyeva // Yeni Azərbaycan. - 2023. - 19 sentyabr. - № 169. - S. 5.

Aida İmanquliyeva - Azərbaycanda ilk şərqşünas professor // Xalq qəzeti. - 2018. - 6 oktyabr. - S. 5.

Aida İmanquliyeva Azərbaycanda ilk şərqşünas qadın alim kimi milli tariximizdə şərəfli yer tutmuşdur // Ədəbiyyat qəzeti. - 2009. - 2 oktyabr. - S. 2.

Aida İmanquliyeva BDU-da anılıb // 525-ci qəzet. - 2019. - 12 oktyabr. - S. 6.

**Baxşəliyeva G**. Əvəzsiz insan // Azərbaycan : qəzet. - 2024. - 19 sentyabr. - № 204. - S. 11.

**Baxşəliyeva G.** Hər əsəri yeni bir tapıntı idi : Elm xadimləri // Azərbaycan. - 2018. - 10 oktyabr. - № 227. - S. 7.

**Baxşəliyeva G.** Şərqşünaslıq elmimizin dünya şöhrətli nümayəndəsi : Aida İmanquliyeva - 80 // Azərbaycan. - 2019. - 9 oktyabr. - № 223. - S. 1, 6.

Bakıda görkəmli şərqşünas alim Aida İmanquliyevanın 70 illiyinə həsr olunmuş Beynəlxalq İbn Ərəbi Simpoziumu işə başlamışdır // Azərbaycan. - 2009. – 11 oktyabr. - S. 2.

**Bayramova Z.** Azərbaycanın dünya elminə bəxş etdiyi şərqşünas alim - Aida İmamquliyeva // Səs. - 2023. - 19 sentyabr. - № 169. - S. 3.

**Bayramova Z.** Beynəlxalq elm aləmində böyük nüfuz sahibi - Aida İmanquliyeva // Səs. - 2023. - 10 oktyabr. - № 184. - S. 1, 3.

**Bayramova Z.** Görkəmli şərqşünas alim Aida İmanquliyeva // Səs. – 2024. – 19 sentyabr. – S. 3.

**Bayramova Z.** Vətəninə, xalqına bağlı şərqşünas-alim Aida İmanquliyeva // Səs. – 2022. – 8 oktyabr. – S. 5.

**Cəfər Ə.** Allahın rübaisi : Aida İmanquliyeva – 75 // Azərbaycan. - 2014. - 10 oktyabr. - S. 3.

**Cəfərova X.** Görkəmli şərqşünas alim Aida İmanquliyevanın dünyaya gəlişindən yetmiş üç il keçir // Xalq qəzeti. - 2012. - 10 oktyabr. - S. 11.

**Cəlilli Ş.** Şərq və Qərbin ortaq dəyərlərinə qapı açmış Azərbaycan şərqşünası // Xalq qəzeti. - 2022. - 11 oktyabr. - № 221. - S. 6.

Dünya şərqşünaslığına böyük töhfələr vermiş nəcib xanım // Xalq qəzeti. - 2013. - 22 sentyabr. - S. 3.

**Elcanlı S.** Şərqşünaslığın Şərq sevdası // Ədəbiyyat qəzeti. - 2024. - 21 sentyabr. - № 36. - S. 16- 17.

Əl Əhram qəzeti: Aida İmanquliyeva ömrünü ərəb və şərq tədqiqatlarına həsr etmiş Azərbaycan alimidir // İki sahil. - 2018. - 10 oktyabr. - № 191. - S. 12.

**Ələddinqızı N.** İstedadlı alim və görkəmli şəxsiyyət - Aida İmanquliyeva // Səs. - 2021. - 9 oktyabr. - № 184. - S. 4.

**Əliyeva İ.** Sönməyən işıq // Azərbaycan. - 2021. - 21 sentyabr. - № 201. - S. 6.

**Əliyeva İ.** Şərqlə qərbi qovuşduran alim : Aida İmanquliyeva - 85 // Azərbaycan. - 2024. - 10 oktyabr. - № 222. - S. 9.

**Əliyeva M.** Kamil insan, dəyərli alim, unudulmaz müəllim, qayğıkeş ana // Respublika. - 2023. - 19 sentyabr. - № 202. - S. 5.

**Əliyeva S.** İlk azərbaycanlı şərqşünas alim, fundamental tədqiqatlar müəllifi // Respublika. - 2024. - 19 sentyabr. - № 204. - S. 6.

**Əlizadə A.** Ərəbşünaslığın parlaq ulduzu // Azərbaycan. - 2019. - 10 oktyabr. - № 224. - S. 1, 6.

**Əzizəliyeva B.** Azərbaycan və dünya şərqşünaslığında parlaq imza: Aida İmanquliyeva // 525-ci qəzet. - 2017. - 10 oktyabr. - S. 4.

**Əzizli B.** Görkəmli şərqşünas alim Aida İmamquliyeva // Azərbaycan. - 2023. - 10 oktyabr. - № 220. - S. 11.

**Fərəcova Z.** Bitməyən ömür // Azərbaycan. – 2017. – 19 sentyabr. - № 203. – S. 6.

**Fərəcova Z.** Böyük ziyalı alim // Azərbaycan. - 2022. - 9 oktyabr. - № 220. - S. 1, 5.

**Fərəcova Z.** Əbədiləşən alim ömrü : O, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, professor idi // Azərbaycan. - 2023. - 19 sentyabr. - № 202. - S. 7.

Gənclər Kitabxanası professor Aida İmanquliyeva haqqında materiallar təqdim edib // 525-ci qəzet. - 2022. - 12 oktyabr. - № 185. - S. 9.

Görkəmli alim Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini dünyada layiqincə təmsil edib : Sentyabrın 19-u şərqşünas-alim Aida İmanquliyevanın xatirə günüdür // Respublika. - 2021. - 19 sentyabr. - № 200. - S. 4.

**Hamidov İ.** Aida İmanquliyeva - Azərbaycan şərqşünaslığının şöhrətli siması // Azərbaycan. - 2021. - 10 oktyabr. - № 218. - S. 5.

**Həmidov M.** Aida İmanquliyevanın tədqiqatlarında mədəni yaxınlıq və sintez // Kaspi. - 2019. - 5 oktyabr. - № 183. - S. 10.

**Hüseynov F.** İslam mədəniyyətinin modernləşməsində Aida İmanquliyeva imzası // Mədəniyyət. - 2015. - 7 avqust. - S. 3.

**Hüseynov R.** Bir şeir misrası kimi : Aida İmanquliyeva haqqında // Xalq qəzeti. - 2018. - 10 oktyabr. - № 227. - S. 7.

**Hüseynova H.** Qəlblərdə yaşayan istedadlı alim və şəxsiyyət : Görkəmli alim, professor Aida İmanquliyevanın anadan olmasının 80 illiyinə həsr olunur // Yeni Azərbaycan. - 2019. - 10 oktyabr. - S. 7.

**Hüseynova H.** Ürəklərdə yaşayan fədakar alim və nəcib insan // İki sahil. - 2021. - 9 oktyabr. - № 184. - S. 10.

**İsayeva Ş.** Azərbaycanın maarifçi qadınları: Aida İmanquliyevanın pedaqoji fəaliyyətində humanist yanaşmalar // Respublika. – 2018. – 3 fevral. - № 25. – S. 5.

İşıqlı ömür... // Yeni Azərbaycan. -2014. - 15 oktyabr. - S. 4.

**Qəhrəman A.** Əbədiyaşar insan : Aida İmanquliyeva – 80 // Azərbaycan. - 2019. - 8 oktyabr. - S. 1, 5.

Qəlblərdə əbədi iz qoymuş görkəmli şərqşünas alim : Aida İmanquliyeva - 80 // Xalq qəzeti. - 2019. - 10 oktyabr. - № 224. - S. 5.

**Quliyev E.** Şərqşünaslıq elmimizin korifeyi : Aida İmanquliyeva - 80 // Kaspi. - 2019. - 8 may. - № 83. - S. 11.

**Qurbanqızı Z.** Şərq mədəniyyəti və ədəbiyyatının dərin bilicisi // Respublika. - 2023. - 10 oktyabr. - № 221. - S. 10.

**Qurbanqızı Z.** Şərqşünaslıq elminin görkəmli tədqiqatçısı // Respublika. - 2022. - 9 oktyabr. - № 220. - S. 4.

**Məhərrəmova T.** Nəciblik nümunəsi // Kaspi. - 2018. - 10 oktyabr. - № 169. - S. 7.

**Məlikli G.** Həyat sevgisində əbədiyyət qazanmış insan // Xalq qəzeti. - 2023. - 10 oktyabr. - № 220. - S. 10.

**Məlikli G.** Unudulmaz şərqşünas alim // Respublika. - 2019. - 10 oktyabr. - № 223. - S. 5.

**Məmmədəliyev V.** Azərbaycan şərqşünaslığının görkəmli nümayəndəsi: Aida İmanquliyeva - 80 // Azərbaycan : qəzet. - 2019. - 11 oktyabr. - № 225. - S. 5.

**Mirələmov H.** Ana abidəsi : Aida İmanquliyeva – 75 // Azərbaycan. – 2014. – 10 oktyabr. – S. 3.

**Mirzəzadə R.** Aida İmanquliyeva fəlsəfəsində qadın hüquqları və gender multikulturallığı // 525-ci qəzet. - 2017. - 10 oktyabr. - S. 4.

Misirli professorun Aida İmanquliyeva haqqında tədqiqat əsəri böyük maraq doğurub // Azərbaycan. - 2022. - 11 oktyabr. - S. 9.

**Muradlı X.** Əbədiyaşar Aida // Azərbaycan. - 2019. - 10 oktyabr. - № 224. - S. 1, 7.

Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim : Görkəmli şərqşünas-alim Aida İmanquliyevanı xatırlayarkən // İki sahil. - 2019. - 20 sentyabr. - № 172. - S. 16.

Unudulmaz məzun - Aida İmanquliyeva kitabının təqdimatı olub // Xalq qəzeti. - 2016. - 14 iyun. - S. 2.

**Vəliyev D.** İstedadlı şərqşünas alim, bacarıqlı elm təşkilatçısı // Xalq qəzeti. - 2021. - 10 oktyabr. - № 218. - S. 5.

**Zümrüd.** Azərbaycan şərqşünaslığının parlaq siması // Səs. - 2017. – 19 sentyabr. - № 168. – S. 4.

## Aida İmanquliyeva xatirələrdə

Azərbaycanda ərəb ədəbiyyatşünaslığı məktəbinin yaradıcısı - Görkəmli alim Aida İmanquliyeva

https://www.youtube.com/watch?v=EZ_wVUNt-gA

Aida İmanquliyeva - Gözəllik və müdriklik timsalı

https://www.youtube.com/watch?v=-VXT8SFfnwM

Tanış olun - Aida İmanquliyeva

https://www.youtube.com/watch?v=rYwaxH7ADeA

AİDA İMANQULİYEVA (film 2018) "Carçı-film" İTV

https://www.youtube.com/watch?v=RWRrl8IvMzg

Görkəmli şərqşünas Aida İmanquliyeva xatirələrdə

https://www.youtube.com/watch?v=Ojd31ZD_904

Akademik Nailə Vəlixanlının görkəmli şərqşünas alim Aida İmanquliyeva haqqında müsahibəsi

https://www.youtube.com/watch?v=z4eijD1vcK0

Aida İmanquliyeva - İstedadlı alim, ictimai xadim, gözəl qadın və ana!

https://www.youtube.com/watch?v=D_OxSu-YdWA

Beynəlxalq elm aləmində böyük nüfuz sahibi - Aida İmanquliyeva

https://www.youtube.com/watch?v=QVaQ1rm7iLE